**GÜNEL SAHIBLI**
**Azərbaycan Dövlət Pedaqqoji Universiteti**
Üzeyir Hacıbəyli, 68
**gunel2944@gmail.com**

# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRİN MƏZMUNUNUN MƏNİMSƏDİLMƏSİ YOLLARI

Xülasə

Məqalədə bədii əsərlərin məzmununun mənimsənilməsi yolları tədqiq edilir. Qeyd edilir ki, şagirdləri əsərin qavranılmasına hazırlamaq, onun düzgün başa düşülməsini təmin etmək lazımdır. Mətnin məzmununun mənimsənilməsi üzrə işin səmərəliliyi oxunun düzgün təşkilindən, interaktiv metodların tətbiqindən çox asılıdır. Şagirdlərin mətn üzərində müstəqil işinin təşkili böyük əhəmiyyət kəsb edir.

Şagirdlərin müstəqillik və fəallığının artırılması, yeni təlim texnologiyalarından, interaktiv metodlardan məqsədyönlü istifadə əsərin məzmununun mənimsənilməsi üzrə işin mühüm şərtləridir. Nəsr əsərlərinin öyrənilməsi zamanı şagirdlər üçün zəruri olan iş növü kimi nağıletmədən istifadə edilməlidir.

Öyrənilən mətn üzrə söhbət müəllimə oxunmuş əsərin şagirdlər tərəfindən necə qavranıldığını, başa düşüldüyünü, onların hadisələrə və qəhrəmanlara münasibəti barədə dolğun təsəvvürə yiyələnməyə, təxəyyül və təfəkkürü inkişaf etdirməyə imkan verir. Söhbət şagirdlərə öz təəssüratlarını və hislərini bölüşməyə, bir biri ilə mübahisə etməyə, düzgün cavab tapmağa kömək edir. Məqalədə əsər üzrə plan tərtibi, ayrı-ayrı hissələrə ad verilməsi, suallara kollektiv ( qruplar üzrə) cavab hazırlanması kimi iş formaları da tövsiyə olunur.

Açar sözlər: məzmun, ədəbiyyat, dərs, şagird, тəhsil, interaktiv, bilik, fəallıq, müəllim, strategiya

Respublikamızın ümumtəhsil məktəblərində uğurla həyata keçirilən təhsil islahatı, təlim prosesində ədəbiyyat fənn kurikulumunun tətbiqi, müasir tələblərə cavab verən yeni nəsil ədəbiyyat dərsliklərinin və müəllim üçün metodik vəsaitlərin nəşri məktəbdə gənc nəslin ədəbi təhsili, tərbiyəsi və inkişafını yeni səviyyəyə qaldırmağa zəmin yaratmışdır.

Bununla yanaşı, Təhsilin İnkişafına dair Dövlət Strategiyasında göstərildiyi kimi, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir.

Orta gəlirli ölkələr arasında rəqabətin güclənməsi, sürətli texnoloji irəliləyiş nəticəsində ixtisas profillərinin tez-tez dəyişməsi təhsilin keyfiyyətinə tələbi daha da artırmışdır. Digər tərəfdən, yalnız təhsilə cəlb etmə səviyyəsinin artırılması və təhsil infrastrukturunun genişləndirilməsi insanların bilik və bacarıqlarının yüksəlməsinə tam təminat vermir. Təhsil infrastrukturu zəruri amil olsa da, bilik və bacarıqlar təhsil müəssisələrinin sayı və təhsilin müddəti ilə deyil, öyrənmə prosesinin keyfiyyəti ilə əldə olunur. Son dövrlərdə bir sıra ölkələr tərəfindən təhsilin inkişafı məqsədi ilə təhsil infrastrukturuna, həmin infrastrukturun yeni avadanlıqlarla təchizatına xeyli vəsait xərclənsə də, həmin ölkələrdə təhsilin nəticələrində müsbət irəliləyiş əldə edilməmişdir. Ümumi təhsil pilləsini bitirməsinə baxmayaraq, hesab, oxu və yazı vərdişlərinə malik olmayan çoxlu sayda insanlar vardır. Həmin səbəblərdən təhsilin keyfiyyətinin təminatı başlıca strateji prioritetə çevrilməlidir.[2 ]

Ədəbi təhsilin keyfiyyətinin artırılması ümtəhsil məktəblərində ədəbiyyat fənninin tədrisində yeni yanaşmaların tətbiqini tələb edir. Məlumdur ki, ədəbiyyat şagirdin şəxsiyyət kimi

formalaşmasında , onda bədii duyumun, yaradıcı qavramanın inkişafında mühüm rol oynayır. Qarşıya qoyulan mürəkkəb vəzifələrin öhdəsindən gəlmək üçün müəllim söz sənəti kimi ədəbiyyatın mahiyyətini, özünəməxsus xüsusiyyətlərini, idraki, estetik, tərbiyəedici təbiətini nəzərə almalıdır.

Təcrübə göstərir ki, təlim prosesində şagirdlərin yaradıcı təfəkkürünü, qavramasını inkişaf etdirən, fərdi xüsusiyyətlərini nəzərə alan informasiya-kommunikasiya texnologiyalarının, interaktiv metodların tətbiqi yüksək nəticələr verir. Müsbət haldır ki, artıq bu sahədə bir çox ədəbiyyat müəllimlərinin səriştəsinin artması müşahidə olunmaqdadır.

Bədii əsər üzrə işin müxtəlif yolları və mərhələləri var. Məktəb təcrübəsi göstərir ki, ədəbiyyat dərslərində bədii əsərlərin məzmununun mənimsədilməsinin müxtəlif yollarından - giriş məşğələsi, əsərin oxusunun təşkili, mətn üzrə işlər (lüğət üzərində iş, plan tərtibi,əsərin hissələrinə ad verilməsi, sitat seçilməsi, sorğu), əsərin məzmununun nağıl edilməsindən istifadə etmək məqsədəuyğundur. İrihəcmli əsərlərin məzmununun şagirdlər tərəfindən mənimsənilməsi dərsə qədər müstəqil mütaliə (evdə iş) vasitəsilə reallaşdırıla bilər.

Bu sahədə müəllimin giriş sözü, giriş müsahibəsi çox əhəmiyyətlidir. Müəllif, öyrəniləcək bədii mətn üzrə düzgün təşkil edilmiş müsahibə şagirdlərin yeni mövzunun mənimsənilməsinə marağını artırır, yeni biliyin qavranılmasına möhkəm zəmin yaradır. Dərsdə bədii oxu ustasının ifasında əsərin səs yazısının dinlənilməsi şagirdlərin bədii qavrama, duyum bacarığının inkişafı baxımından çox əhəmiyyətlidir. Şagirdlərin diqqətini fəallaşdırmaq baxımından əsərin səsli və ya səssiz oxusu, dramatik əsərlərin, dialoqların rollar üzrə oxusuna geniş yer verilməlidir. İnteraktiv təlimi təmin etməyə imkan verən proqnozlaşdırılmış oxu və fasilələrlə oxu təlimin səmərəliliyini artırmağa imkan verir. Lakin bu metod və üsulların tətbiqində ilk növbədə əsərin mətninin verdiyi imkanlar nəzərə alınmalı və müvafiq iş növləri seçilməlidir.

Bəzi müəllimlər əsərin məzmunu üzrə iş zamanı şagirdlərin ifadəli oxusunun təşkil etməyə səy göstərirlər. Halbuki əsərin ideya-məzmununu dərindən mənimsəməyən şagirdin ifadəli oxusu, təsvir olunanları, müəllif niyyətini səslənən sözlə dinləyicilərə çatdırması qeyri-mümkündür. Metodik ədəbiyyatda da göstərildiyi kimi, şagirdin ifadəli oxusu yalnız əsərin təhlilindən, mətnin ideya-məzmununu dərindən mənimsəməsindən sonra mümkündür.

Mətnin oxusundan sonra bilavasitə bədii əsərin məzmunu üzrə işin ilk istiqaməti şagirdlər tərəfindən tanış olmayan sözlərin müəyyənləşdirilməsi və mənasının lüğətlərdən istifadə etməklə öyrənilməsidir. Bu kurikulumun mətn üzrə işlə bağlı mühüm tələblərindəndir. Lüğət üzrə iş obrazlı sözün mətndəki rolunun müəyyənləşdirilməsində rolunun aydınlaşdırılması şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə xidmət edir. Klassik ədəbiyyatın dil-üslub baxımından şagirdlər üçün çətinlik yaratdığı nəzərə alınaraq yeri gəldikcə müəllimin şərhinə ehtiyac duyulur.

Ədəbiyyat fənn kurikulumuna bədii əsərin məzmununun öyrənilməsi probleminin həllini nəzərdə tutan mətnin hissələrə ayrılması, hər hissəyə müvafiq ad verilməsi, plan tərtibi ilə bağlı standartlar da daxil edilmişdir.

Bədii əsərlərin sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsi üzrə işin təməli mətnin məzmununun mənimsənilməsi zamanı qoyulur. Bu iş əsas etibarilə hər sinif üzrə standartlara müvafiq bədii təsvir və ifadə vasitələrinin şagirdlərin öyrənilən mətndə müəyyənləşdirməsini nəzərdə tutur.

Şagirdlərin müstəqillik və fəallığının artırılması, yeni təlim texnologiyalarından, interaktiv metodlardan məqsədyönlü istifadə əsərin məzmununun mənimsənilməsi üzrə işin mühüm şərtləridir. Nəsr əsərlərinin öyrənilməsi zamanı şagirdlər üçün zəruri olan iş növü kimi nağıletmədən istifadə edilməlidir. Mətnin məzmununun nağıl edilməsinin aşağıdakı formaları vardır:

1. Yığcam nağıletmə; 2.Geniş nağıletmə; 3. Yaradıcı nağıletmə;

Yığcam nağıletmə əsərin məzmunun süjet xəttində, ideyanın açılmasında mühüm rol oynayan səhnələr, epizodlara diqqət yetirilməsini, təfərrüatlardan, ikinci dərəcəli məsələlərdən imtina edilməsini nəzərdə tutur. Nağıletmənin məzmununa yalnız əsas hadisələrin, obrazların daxil edilməsi nəticəsində şagirdin nitqi yığcamlıq, aydınlıq, fikri az sözlə çatdırmaq kimi keyfiyyətlər əxz edir.

Geniş nağıletmə şagirdlərin müstəqilliyi, təxəyyülünün inkişafı baxımından faydalıdır. Bu zaman məktəblilər mətndən kənara çıxmır, əlavələrini onun məzmununa uyğunlaşdırırlar.

Yaradıcı nağıletmə zamanı şagirdlər müəllifin əsərdə bir neçə cümlə ilə ifadə etdiyi fikri, hadisə, təbiət, əşya, portret təsvirini genişləndirir, əlavələr edirlər. Onlar hadisələrin gələcək inkişafını necə təsəvvür etdiklərindən, qəhrəmanların gələcək taleyi ilə bağlı fərziyyələrindən söz açır, əsərin sonluğunu dəyişdirirlər. [6, səh.7 ]

7-ci sinifdə S.Vurğunun "Azərbaycan" şeirinin məzmunu üzrə işə 2 saat ayrılmışdır. Müəllim üçün metodik vəsaitdə əsərin məzmununun mənimsənilməsi üzrə işin təşkili üçün aşağıdakı metodik tövsiyələr verilmişdir.

1. Əsərin ilk səkkiz bəndinin oxusundan (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz) sonra dörd qrupa bolünün. Hər qrup iki bənd üzərində işləməklə fikirlərinizi ikihissəli gündəlikdə yazın. Bunun üçün aşağıdakı cədvəldən istifadə edin.

| **Əsərda diqqatimizi daha çox cəlb edənlər** | **Bunun səbəbi** |
|---|---|
| ... | ... |

2. Gəldiyiniz nəticələri müzakirə edin.
3. Mövzulardan birini seçib şifahi təqdimat hazırlayın.
4. ***"Şeirdəki hansı söz və ifadələr Vətənimizin təbiəti barədəki təsəvvürünüzü zənginləşdirdi?" Öyrəndiyiniz yeni sözlərdən istifadə edin.***
5. ***Şeirin iki bəndini nəsrə çevirin, məzmununu yığcam danışın. Həmin bəndləri seçməyinizin səbəbini izah edin.***

***Əsərin məzmunu üzrə işə həsr olunan ikinci dərsdə aşağıdakı sual və tapşırıqlar üzrə iş təşkil edilir:***

**Bilik və bacarıqlarınızı tətbiq edin.**

- Şeirin məzmununa aid ən azı üç sual yazın.
- Vətənlə bağlı bir neçə atalar sözü xatırlayın. Şeirin məzmunu ilə səsləşən məqamları izah edin.
- Vətənimizin tarixi ilə bağlı şeirdəki fikirləri təsdiq edən misallar söyləyin.

Şeirin bir bəndindəki həmqafiyə sözləri müəyyənləşdirib yazın.[6, səh. 49-50 ]

Göründüyü kimi, metodik vəsaitdə şeirin məzmunu üzrə iş zamanı interaktiv təlim metodlarıına, şagirdlərin mətn üzərində müstəqil işinin təşkilinə, fərqli iş növlərinin növbələnməsinə xüsusi diqqət yetirilmişdir. Müstəqil işin müxtəlif növlərindən - bərpaedici və yaradıcı müstəqil işlərin icrası zamanı şagirdlərin fəallıq göstərir.

Öyrənilən mətn üzrə söhbət müəllimə oxunmuş əsərin şagirdlər tərəfindən necə qavranıldığını, başa düşüldüyünü, onların hadisələrə və qəhrəmanlara münasibəti barədə dolğun təsəvvürə yiyələnməyə, təxəyyül və təfəkkürü inkişaf etdirməyə imkan verir. Söhbət şagirdlərə öz təəssüratlarını və hislərini bölüşməyə, bir biri ilə mübahisə etməyə, düzgün cavab tapmağa kömək edir. Dərsdə müəllim ayrı-ayrı bəndlərin məzmunu ilə bağlı düşündürücü suallar vasitəsilə şagirdləri vətənlə bağlı ümumi cümlələrdən bilavasitə əsərdə qoyulan problemlər üzrə konkret mülahizələr söyləməyə sövq edir.

Suallar həm forma, həm də məzmun cəhətdən aydın əhatə edir. Suallar həm forma, həm də məzmun cəhətdən aydın olmalı və ardıcıllıq gözlənilməlidir. Sualları xırdalamaq, çoxlu sual vermək olmaz. Suallar elə qoyulmalıdır ki, hər sualın cavabı əsərin bitmiş bir hissəsinin qısa məzmununu əhatə etsin. "Hə", "yox" cavabı tələb edən və ya bir neçə mərtəbəli mürəkkəb sual verilməlidir. Deməк, sual-cavab, müsahibə məzmunu mənimsətmək üçün ən yxşı yollardan biridir.

"Azərbaycan" şeirinin məzmunu üzrə iş zamanı şagirdlərin diqqəti vətənpərvərlik, vətəndaş mövqeyi, yurdumuzun təbiəti, mənəvi sərvətləri ilə bağlı müəllif düşüncələrinə yönəldilir. Vətənə məhəbbət, vətənin tərənnümü ilə bağlı söhbət insanın vətəndaşlıq borcu, vətənə münasibəti ilə bağlı geniş müzakirəyə çevrilir.

Şagirdlərin fəallıq və müstəqilliyinə geniş yer verilməsi, yeni təlim texnologiyalarına, interaktiv təlim metodlarından məqsədyönlü istifadə olunması ədəbiyyat dərslərində bədii mətnin məzmununun mənimsənilməsi üzrə işin səmərəliliyinin mühüm amilləridir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənn kurikulumu. V-XI siniflər. "Azərb. müəllimi" qəzeti, 24 dekabr 2010, N50.
2. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan müəllimi qəzeti.25 okt 2013. N 41 (8558).
3. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.
4. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal/interaktiv təlim. Bakı, 2009.
5. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2028.
6. Hüseynoğlu S., Həsənov B., Mustafayeva A., Məmmədova S. Ədəbiyyat. VII sinif üçün dərslik. Bakı:Bakınəşr, 2016.

Г.Сахибли

## Пути усвоения содержания художественного произведения на уроках литературы

## Резюме

В статье исследуется пути усвоения содержания художественных произведений на уроках литературы. Отмечается, что надо подготовить учеников к восприятию произведения, обеспечить правильность его понимания. Эффективность работы по усвоению содержания художественного текста во многом зависить от правильной организации чтения, использования интерактивных методов. Важное значение имеет организация самостоятельной работы учащихся над текстом.

Повышение активности и самостоятельности учащихся, целенаправленное использование новых технологий обучения и интерактивных методов является важным фактором условием работы по усвоению содержания художественного текста. При изучении прозаических произведений нужно обратиться к пересказу текста, как необходимому для учеников виду работы.

Беседа по тексту изучаемого произведения. дает учителю возможность представить себе восприятие и понимание прочитанного учениками, их отношение к событиям и героям, позволяет развивать воображение и мышление. Беседа позволяет учащимся непосредственно делиться своими впечатлениями и переживаниями, спорить друг с другом и в спорах находить верный ответ. В статье рекомендуются и такие формы работы, как составление плана, озаглавливание частей произведения, коллективная ( по группам) подготовка ответов на вопросы.

**Ключевые слова**: содержание, литература, урок, ученик, образование, интерактивный, знание, активность, учитель, стратегия

**G.Sahibli**

**Ways of mastering the content of the artwork in literature classes**

## Sammary

The article examines the ways of mastering the content of works of art in literature classes. It is noted that it is necessary to prepare students for the perception of the work, to ensure the correctness of its understanding. The effectiveness of the work on mastering the content of an artistic text depends largely on the proper organization of reading, the use of interactive methods. Important is the organization of independent work of students on the text.

Enhancing the activity and independence of students, the targeted use of new learning technologies and interactive methods is an important factor in the work to master the content of the artistic text. In the study of prose works, one should refer to the retelling of the text as a kind of work necessary for the students.

Conversation on the text of the studied works. gives the teacher the opportunity to imagine the perception and understanding of the students read, their attitude to events and heroes, and allows them to develop their imagination and thinking. Conversation allows students to directly share their impressions and feelings, argue with each other and find the right answer in disputes. The article also recommends such forms of work as drawing up a plan, captioning parts of a work, collective (in groups) preparing answers to questions.

**Key words:** content, literature, lesson, student, education, interactive, knowledge, activity, teacher, strategy

Redaksiyaya daxil olma tarixi: 14.04.2019
Çapa qəbul olunma tarixi: 22.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Pərixanım Soltanqızı tərəfindən çapa tövsiyə olunmuşdur.